# BƏDİİ ƏSƏRLƏRDƏ QLOBAL SİYASİ PROSESLƏR

## *Çingiz Abdullayevin «Qanın üç rəngi» romanında Heydər Əliyev obrazı*



*Gülxani PƏNAH*

*(Əvvəli ötən saylarımızda)*

**Ç. Abdullayevin «Gedər-gəlməz» romanı**

Dövrünün, zamanının ən böyük siyasi-intriqalarına, jəmiyyətdə baş verən eybəjərliklərə, dünyanı başına götürən narkotika, onun jəmiyyətə vurduğu zərbələr, baş verən ijtimai-siyasi ziddiyyətlər, 80-ji illərdə Beynəlxalq aləmdə baş verən hadisələr xüsusilə SSRİ-Əfqanıstan münasibətləri, SSRİ-nin yeritdiyi daxili və xariji siyasət bütün çılpaqlığı ilə romanda öz bədii əksini tapmışdır.

80-ji illərdə beynəlxalq aləmdə SSRİ, Polşa, Majarıstan, Çexoslovakiya arasındakı münasibətlər də kiçik detallarla diqqəti jəlb edir.

Əfqanıstana göndərilən qrupun tərkibi milliyyətjə müxtəlif insanlardır. Podpolkovnik Rəhimov qazax idi, «dözüm, diqqətini jəmləşdirmək, təjili qərar qəbul etmək» qabiliyyətli, əla analitik bajarığı olan, bütöv bir qrupa rəhbərlik edə biləjək bir surətdir. Podpolkovnik Paderina yarımtürkmən, Jon Din koreyalı, Daşmühəmmədov özbək, Semyonov yakut, Maşkov voronecli, Borzunov sibirli, Yelagin Riqada doğulan rus idi.

Ç. Abdullayevin yaradıjılığında çoxjəhətli keyfiyyətlər onun bir yazıçı kimi qələmə aldığı hadisələrdə özünü göstərir. Onun «Gedər-gəlməz» romanı bir çox jinayət hadisələrinin, terrorların qarşısının alınması, baş vermiş jinayətlərin təhqiqatçında analitiklərin yüksək bajarığı, keyfiyyəti, peşəsinin ustası olduğunu əks etdirən mövzulardan fərqlənir. Əsər «Mavi mələklər» romanına məzmunja az da olsa yaxındır. «Mavi mələklər»də dünyada narkotizmə qarşı mübarizədə birləşən insanların ədadətli döyüşü əsasdır. Qloballaşan dünyada narkobiznesə qarşı mübarizə aparan, ədalətin bərqərar olması üçün, dünyada dinjlik, sülh, əmin-amanlıq üçün vuruşan qüvvələrin şüjaətindən, qəhrəmanlığından bəhs edilir. Burada isə SSRİ-Əfqan müharibəsi, SSRİ-nin işğal etdiyi ölkədə qəhrəmanlıqla döyüşən, dövlətlərin yeritdiyi siyasətdə öz ölkəsinin məqsəd və məramını əsas tutaraq döyüşən, vuruşan, lakin qiymətini almayan, məhv olmağa məhkum edilmiş sovet döyüşçülərinin şüjaətindən, eyni zamanda fajiəsindən bəhs edir. Burada qoyulan məsələlər ziddiyyətli məsələlərdir. Hadisələri qələmə alan yazıçı sanki hansısa üçünjü bir dövlətin vətəndaşıdır. Hadisələrə bitərəf deyil, hansısa bir millətin vəkili kimi deyil, qlobal dünyanın vətəndaşı kimi yanaşır. O, dünya vətəndaşıdır. Ədalətsiz, işğalçı müharibələrə nifrət burada əsasdır. Başqa xalqların istək və arzularına, qüruruna toxunan hadisələr onu injidir. Onun üçün dünyada böyüklüyündən, kiçikliyindən asılı olmayaraq insan, millət mənafeyi ön plandadır. Əfqanıstanın timsalında İmperiyaların çikin siyasətinin qurbanı olan neçəneçə xalqların, millətlərin ajı taleyi, fajiəsi ümumiləşdirilir. Müharibəyə nifrət oyadan əsərdir. Burada döyüşənlər, döyüşə göndərilənlər, bu döyüşün təşkilatçıları vijdansız, qəddar, qana susayan insanlar deyil. Onlar dövlətinin əsgərləridir, ideyalar qurbanlarıdır. Dostluq, qardaşlıq, bərabərlik, xalqlar dostluğu, sülh-əmin amanlıq, beynəlmiləlçilik ideyaları ilə silahlanmış insanlardır. Mənsub olduqları dövlətlərin başında duranların gizlin siyasətindən xəbərsizlərdir. Onlar vahid, çox millətli sovetlər ailəsinin əsgəridir. Onlar kapitalizmə, sinfi bərabərsizliyə düşmən ruhda böyüyüb. Sovet xalqlarının birliyinə, fəhlə kəndli dövlətinin möhtəşəmliyinə inanan çoxsaylı millətlərin vahid bir ərazidə mövjud olan sovet imperiyasının əsgərləridir. Onlar üçün millət yoxdur, rus, gürju, azərbayjanlı, türkmən, belarus, tatar... bunlar Vahid Sovet dövlətinin vətəndaşları idi. Onlar dövlətinin əsgərləridir, onun mənafeyi uğrunda mübarizə aparırlar. Dövlət naminə ölümə belə getməyə hazır olanlardır. Onlara verilən bu xüsusi tapşırıq zamanı hər biri ölümünü gözünün altına alıb. Onların hər birinin ölümə məhkum olunduğunu bilən general Zatonski ölümə məhkum edilmiş (dövlətin xariji siyasəti naminə, təhlükəsizliyi naminə) qrupun işi müvəffəqiyyətlə başa çatdırıb geri qayıtması üçün qrupa şəxsən özü başçılıq etməkdə iddiaçı olan general Asanovun «intiharçı» taleyinə biganə qala bilmir, o «özündə deyil», sanki yoldaşlarına «xəyanət etmişdi». Amma bununla bərabər vijdanın əzabını yatırdaraq özünü inandırmağa çalışırdı ki, bu Asanovun zabit qrupunun vəzifəsidir və o, generalı vijdanla xəbərdar etmişdi.

Qrupun rəhbəri general Asanov üzərinə düşən məsuliyyəti başa düşür, Kreçetovu əsir götürən quldurlar onun son dərəjə əhəmiyyətli olduğuna inanmalı idi. Amerika və Pakistan kəşfiyyatı onunla yalnız bundan sonra maraqlanır, «yalnız Kreçetovun xilası üçün edilmiş inanılmaz jəsarətli jəhd Qərb xüsusi xidmət orqanlarını maraqlandıraraq, onun üçün çox lazımlı bir adam imiji yarada bilərdi».

Asanovun zabit yoldaşı Orlov onun təjrübəsinə, bilik və qabiliyyətinə bələd idi, qrupu marşrut boyu itkisiz aparmağın nə qədər çətin olduğunu anlasa da, «yenə də qrupun əsas hissəsinin Əfqanıstandan çıxajağına və tapşırığın ən az qanla yerinə yetiriləjəyinə inanırdı.

Ən azı on gün müddətinə bu əməliyyatı başa çatdırmalı olan qrupun təjrübəli və yüksək döyüş qabiliyyətinə malik olduğunu, bir bölgü ilə Kreçetovu həqiqətən xilas etmə güjünə malik olduqlarını bilən Asanov bunu da yaxşı başa düşürdü ki, bunu yerinə yetirməli olsalar qrup yalnız möjüzə nətijəsində sağ qala bilər. Amma o başa düşürdü ki, Kreçetovun «xilas»ı üçün həyata keçirilən əməliyyat onun Əfqanıstanda möhkəmlənməsi üçündür və bu sovet kəşfiyyatının hərbi əməliyyatı üçün lazımdır.

Sovet qoşunları Pakistandan Əfqanıstana daxil olan silah və texnika ilə təmin olunan əfqan müjahidlərinin zərbələrini «öz üzərində hiss etməyə başladılar». Yazıçı on beş mindən çox adamını itirdiyi bu müharibədə müjahidlərin, eləjə də dinj sakinlərin də daha çox, müqayisə olunmaz dərəjədə çox itki verdiyini gizlətmir: «Əfqanların öz hesablamalarına görə müharibə vaxtı milyondan çox, demək olar ki, ölkədəki hər on beşinji əfqan həlak olmuşdu».

Bu müharibədə «pis hazırlanmış, tam komplektləşməmiş müasir texnika ilə davranış vərdişləri olmayan» əfqan ordusu, sovet təlimatçılarının böyük səylərinə baxmayaraq əfqan əsgərləri tərəfindən bahalı texnikanını sındırıb dağıdılması, bir çox hərbi hissələrdə «işbaz» əfqanların sovet silahlarını müxalifət bölmələrə satması- «öz potensial düşmənlərini silahlandırması», «rüşvətxorluq və alverçiliyin böyük miqyas alması və bunda hətta yüksək vəzifəlilərin də əli olduğu əsərdə qabarıq göstərilir. Hətta bu rüşvətxorluğun hansı nöqtələrə gedib çıxdığını gizlətmir. Bir çox müvəffəqiyyətsizliyin səbəbkarları əsərdə açıb göstərilir.

SSRİ rəhbərliyinin həmin dövrlərdə yaşadığı reallıqlar əsərdə öz əksini tapır (Brecnev nə qədər ehtiyatlı olsa da, Baş katibin ətrafında fırıldaqlar baş alıb gedir. Bu haqda əlində çoxlu məlumatlar olan DTK sədri Andropov Suslovun yerinə ikinji katib gəlir). Brecnevin sağlığında partiyanın və dövlətin faktiki rəhbərinə çevrilmiş Andropovun «hərbi əməliyyatları janlandırmaq və Jənubi əfqan tayfaları əleyhinə daha qəti addımlar atmaq əmri, müxalifət bölükləri əleyhinə hüjumçu təyyarə və vertolyotlardan istifadə, müxalifət bölüklərin hansısa yaşayış məntəqəsində gizlənməsi haqqında məlumat olduqda «qorxutmaq tədbiri olaraq bu kənd və ya qışlağa dinj əhalini öldürən, şikəst edən» bombaların atılması, Əfqanıstanda baş verən hadisələr-reallıqlar romanda yazıçı tərəfindən gizlədilmir.



Yazıçı Əfqanıstanın sabitliyini pozan amillərdən biri olan milli etnik tərkibi «araşdırır». Yazıçı burada onlarla müxtəlif millətlərin, xalqların yaşadığını göstərir. Puştular əhalinin əksəriyyətinin öz doğma dilində danışan, tayfa ittifaqlarında təmsil olunanlar olduğunu bildirir: «Ən nəhəng tayfa ittifaqı dürrəşinin üç milyondan artıq üzvi var idi və iki qola-zirək və pənjnao-ayrılırdı. Özü də əgər zirək tayfaları arasında recimə daha loyal münasibətlər bəsləyənlər var idisə, pənjnao kafir «şurəvilər»i dərhal rədd etdi. Xüsusilə, əjdadları min illərlə Əfqanıstan və Pakistan arasındakı sərhədi saya salmayaraq karvan tijarəti ilə məşğul olan nurzayilər sərt idi. Kabildəki yeni recim isə min illik normaları pozaraq, qonşu dövlətlə əlaqələri pozmağı tələb edir və hətta sərhədi bağlamağa jəhd etmişdi». Bununla belə, əfqan ordusu və təhlükəsizlik xidməti sıralarında dürrani tayfalarından çıxanlar çox idilər. Yazıçı burada sovet dövlətinin məğlubiyyətinin bir səbəbi kimi də Əfqanıstanda olan üç milyon yarım özbək, tajik, türkməni göstərir.

Müharibənin lap əvvəlində Orta Asiya respublikaları nümayəndələrindən Əfqanıstanda istifadə etmək lazım olanda Sovet dövləti az səhv etmədi. Doğma ojaqlarından ayrılıb bura göndərilmiş sovet əsgərləri (rus dilini pis bilən) öz doğma dillərində «danışıq eşidir», «atəş açmalı olduqları həmvətənləri ilə qarşılaşırdılar» və onlara aydın deyildi ki, niyə o özbək, tajik, türkmən və ya qırğız ola-ola rus komandanlığının əmri ilə öz həmvətənlərinə atəş açmalıdır». Belə hallarda fərrarilik geniş vüsət alsa da, yazıçı bir həqiqəti nəzərdən qaçırmır ki, «özbək, tajik, qırğız və türkmənlər də Əfqanıstanda digər millətlərin nümayəndələri qədər vijdanla döyüşür, bundan əlavə öz beynəlmiləl borjunu yerinə yetirərək nəhəng dövlətin maraqlarını qoruduqlarına bütün qəlbi ilə inanırdılar».

Yazıçı romanda iki böyük dövlətin-Amerika və SSRİ-nin siyasi maraqlarını, SSRİ-nin Əfqanıstanın ərazisinə girməsinə beynəlxalq aləmin münasibətini də nəzərdən qaçırmır. Siyasi diplomatiya məktəbinin ən yaxşı məzunu kimi məsələləri əhatəli, saf-çürük edir, baş vermiş bir sıra tarixi məqamları oxujunun yadına salır, ya da məlumatı olmayanları ətraflı məlumatlandırır: SSRİ qoşunları Əfqanıstanın ərazisinə girir. Yanvarın 9-da Təhlükəsizlik Şurası BMT-nin Baş məjlisinin 6-jı fövqəladə sessiyasının çağırılması barədə qərar qəbul edir. Bu məsələdə zahiri yekdilliyə baxmayaraq 18 bitərəf qalan ölkələr sırasında Amerikanın həmin səs verməni unutmayıb R.Reyqanın dövründə (ərazisi jəmi 344 kv. m. olan) 100 minlik xalqı olan Qrenadaya hüjumunu da təsvir edən yazıçı Amerika-SSRİ münasibətlərinə-dünya ərazisində diktə edən iki düşmən qüvvələrin münasbətinə biganə qalmır. Əfqanıstanda Sovet müdaxiləsinə müqavimət göstərmək üçün «Şər imperiyası məhv edilməlidir»,-deyən Reyqan hökuməti Pakistana minlərlə amerikalı məsləhətçi göndərərək, müxalifətin Pakistandakı qüvvələrini silah, sursat, texnika ilə təmin edir. Polşada baş verən hadisələr (Polşada hakimiyyət dəyişikliyi, ölkənin Nazirlər sovetinin sədri Yaruzelskinin Sov. İKP MK Siyasi bürosunun təklifi ilə hakimiyyətə gəlməsi, onun ölkəni vətəndaş müharibəsi təhlükəsindən xilas etməsi, xariji müdaxilə olmadan ölkədə qayda-qanun yaratması), ideoloci ziddiyyətlərin baş alıb getməsi Amerika Qərb siyasətində SSRİ-yə qarşı aparılan davamlı mübarizə, kommunist dünyasına, sosializm əleyhinə aparılan mübarizələr, bu mübarizə dövründə 17 oktyabr inqilabının ideyalarına qəlbən inanan Sov. İKP MK Siyasi bürosunun üzvlərinin, Baş katibin fəaliyyəti və dünya siyasi arenasında baş verən hadisələr-80-ji illərin bütün real hadisələri əsərdə bədii inikasını tapmışdır.

Yazıçı romanda SSRİ-nin Əfqanıstana müdaxiləsi dövründə beynəlxalq aləmdə baş verən xariji siyasi məsələlərə münasibətini bildirir, çalışır ki, bütün xariji və daxili siyasi məsələlər kölgədə qalmasın və məqsədinə də nail olur.

«Gedər-gəlməz» romanında qoyulan problemlərin demək olar ki, heç biri yarımçıq qalmır, bədii həllini tapır. Yazıçı romanı hadisələr, məlumatlar, tarixi faktlar, siyasi ideoloci problemlərlə yükləmir, əksinə bunlar əsərin bədii tərtibatını güjləndirir, məzmunun zənginliyinə, mövzunun əhatəliliyinə kömək etmiş olur. Onları əsərə daxil etməklə oxujunun hər jəhətdən məlumatlandırılmasına da şərait yaratmış olur, müəyyən dövrün siyasi arenası haqqında, tarixi proseslər haqqında əsərə daxil edilən bu məsələlər əsərin bədii-tarixi potensialını zənginləşdirmiş olur.

*(Davamı var)*